


Mahirə Nağıqızı


### GİZLƏDİM

Qapını döyməyə qolum qalxmadı,
Adını istədim çəkəm ki, çaşdım.
Sənə deyiləsi ürək sözümü,
Divara danışdım, daşa danışdım.

İllər yük yeriydi, yük dolabıydı,
Sənsiz bilmədim ki, hara düşəm mən.
Dərdləri sən mənə vermişdin deyə,
Doğma balam kimi bəsləmişəm mən.

Gözümün yaşını görmədi bir kəs,
Səninçün axırdı deyə gizlədim.
Qəlbimə tökülən o nuru bilsən,
Mən necə oxşadım, nə əzizlədim!

Bilmədim bu qədər niyə doğmasan,
Gözümün nurusan, qəlbimin başı.
Oğlumsan, qızımsan, anam-bacımsan,
Qarın qardaşısan, köynək qardaşı?

Kəbəni dolandım, Məkkəni gəzdim.
Haqqın işığında özümü görəm.
Mən belə bilməzdim, belə bilməzdim,
Allahım, dərdinlə bəxtəvərəm mən.

### BİR İLDİR

Nə yaxşı göndərdi səni Yaradan,
Düşübdür qəlbimin daşı bir ildi.
Mən nələr çəkirdim tənhalığımdan,
Quruyub gözümün yaşı bir ildir.

Yanım adamlıydı, qəlbim tənha, tək,
İçim nisgilliydi, baxışım ürkək.
Birinci dəfədən mən səni görcək,
Göynəyir köksümün başı bir ildir.

Oy, mənim sevincim, dərdim-qəmim sən,
Gözümün işığı, ləl, ənbərim sən,
Övliyam, imanım, peyğəmbərim sən,
Mat qalıb halıma naşı bir ildir.

Göydənmi verdilər baxtıma mənim,
Sən addımmı atdın taxtıma mənim?
Yazığınmı gəldi vaxtıma mənim,
Əlli dörd yaşımın yaşı bir ildir.

Əl açdım Allaha gündə yüz kərə,
Mərhəmət, gözəllik göndərə yerə.
Xəyalın yanında deyir Mahirə
Bərq vurur üzüyünün qaşı bir ildi.

### QOCALDI

Gözüm açıb səni belə görmədim,
Doğrudanmı məndə güman qocaldı?
Dünya, sənin hikmətini bilmədim,
O şux anam, laçın anam qocaldı.

Ocaq qurdu, yaşı neçə yaş idi?
Zəif çiyni nə yükləri daşıdı!
Hərəmizdə bir arzusu yaşadı,
Özü isə zaman-zaman qocaldı.

Bir nazlanıb oynamadı telləri,
Od üstündə aldı, verdi illəri.
Gözümüzün qabağında əlləri,
Qabar tutdu, əli yaman qocaldı.

On bir uşaq, on bir ocaq - deyərdi,
Hamısına açdım qucaq - deyərdi,
Ömrüm sizdə yaşayacaq - deyərdi,
Ömrü bizdə aram-aram qocaldı.

Kirpiyində köz götürdü, yanmadı,
Haqlı-haqsız söz götürdü, yanmadı,
Ağır yükü yüz götürdü, yanmadı,
İki oğul verdi qurban, qocaldı.

Bulaq idi, qayım-qayım çağlayan,
Sısqalaşdı, oldu ürək dağlayan.
Həsən kimi qardaş verib ağlayan,
Vətən deyib, nə zamandan qocaldı.

Ana - dedim, qurbanam o gözlərə,
Sən susatdın, həmdəm etdin sözlərə.
Əli verdi, Vəli verdi bizlərə,
Özü durdu bir qıraqda qocaldı.

### AÇILMAZ

Göydə toplaşanda qara buludlar,
Dolub boşalmasa o Gün açılmaz.
İstək boy verəndə dağlar xırdalar,
Çayların qabağı ölgün açılmaz.

Gözümü açandan dünya qarışıq,
Sevincdə zülmət var, kədərdə işıq.
Gördüyüm qapılar ancaq yaraşıq,
On illər gözləsəm, bir gün açılmaz.

Heyrətim boy vermir gör neçə ildi,
Tanrım verənlər də hamısı bəlli.
Şəri də, xeyri də ancaq təsəlli.
Sirrinə sərf etsən ömrün, açılmaz.

Deyirdim bu zəhər ağzıma dad ver,
Talesiz ömrümə qol ver, qanad ver.
Demədim adıma gündə bir ad ver.
Bu dava- dalaşla düyün açılmaz.

Səndə nə günah var, yerdə bəndəsən,
Məni ki, salmadın bərə-bəndə sən.
Yüz yazıb göndərsən Ona gündə sən.
Qədəri yazan var, gördün, açılmaz.

### BİR QIZ

Ah, nə tez adladıq bu uzun yolu,
Yadıma düşəndə ürəyim yanar.
Yadıma salıram kim əl eylədi,
Qarşımda nur kimi bir qız dayanar.

Zərif cizgiləri, həyalı, ürkək,
Gül üstə yığılan şeh kimi təmiz.
Arada deyirdik onu incidək,
Üzündə kin-qəzəb görəcikmi biz?

Hamının içində hamı kimiydi,
Hamıdan hamımız seçərdik onu.
Elə təmiz idi, elə saf idi,
Deməzdin hamı tək doğulduğunu.

Gözümüz önündə hamı dəyişdi,
Qızların bəzəyi, ənlik-kirşanı.
Bircə o qalırdı, o saxlayırdı,
Özündə biz kimik, kimin nişanı.

Beləcə illərdi, arxada qaldı,
Dəyişən görmədik bircə an onu.
Bir onu bilirdik harada olsa,
Qorxutmaz hansısa imtahan onu.

### AYRILIM

Hamıdan ayrıla bilərəm, amma,
Səndən, Allahımdan necə ayrılım
Tanrı pay uzadıb əlim çatmayıb,
Küskün xəyalımdan necə ayrılım?

Deyirlər xeyir-şər başa başadır,
Ayırmaq olmaz ki, onlar qoşadır.
Hər insan həyatı bir tamaşadır,
Tamaşa halımdan necə ayrılım?

Axı sən bilirdin dərddi yoldaşım,
Divar hörməyə də dərd oldu daşım.
Qoy burda dərdimdn qalım, daşdaşım,
Bu dərd sarayımdan necə ayrılım?

Hayıma çatan var - hamıdan uca,
İbadət eyləyim ona doyunca.
Mahirə, ömürdü, ömür boyunca
Sevda diyarımdan necə ayrılım?

### QARIŞIQDI, QARIŞIQ

Düzənlənə biləcəkmi bu dünya
Doğuşundan qarışıqdı, qarışıq.
Ağlar gözün güləcəkmi, a dünya
Durusu yox, arısı yox, bulaşıq.

Qanad taxır, mələk kimi görünür,
Duman olur zirvələrdə sürünür.
Tordu qurur, hiylədi ki, düşünür.
Başı yaman qarışıqdı, qarışıq.

Qocadımı, cavandımı bilinmir,
Aqildimi, cahildimi bilinmir,
Nəyi satır, nə alandı bilinmir,
Tək bildiyim qarışıqdı, qarışıq.

Sarvanı var, dayanmır ki, yol gedir,
Sarvanı var usanmır ki, yol gəlir.
Düşünmə ki, özü öz yaşın bilir.
Əzəl gündən qarışıqdı, qarışıq.

Mahirə, özünü salma çətinə.
Bu dolaşıq çətin bitə, tükənə
Əl açmışam hər gələnə, ötənə
Kələfləri dolaşıqdı, dolaşıq.

### DÜNYA

Yol gələr, yol gedər mənzilə çatmaz,
Yollarda başlayar, bitər bu dünya.
Çapardı arifə, marığa yatmaz,
Kimiyə alovdur, kimə su dünya.

Gedənə deməzlər hər nə var gətir,
Fələkdən ummazlar: düz ilqar gətir.
Arandan tut gətir, dağdan qar gətir,
Ümidli xəstənin arzusu dünya.

Ümiddən düşməyən dilək yaratdı,
O, Allah yaratdı, mələk yaratdı.
Ev qurdu, bağ saldı - gerçək yaratdı,
Özünü gəzənin duyğusu - dünya.

Kimdi bağçasında kimə dərd əkən,
Kimdi qismətindən bezən, əl çəkən?
Mənzilə yollanan, yolda görükən,
İnsanın pusqusu, ovçusu dünya.

Nə salam verəndir, nə salam alan,
Ovqatı ötəri, vüsalı yalan.
Mahirə, söylə ki, bizlərə qalan,
Bir addı, onun da suçlusu dünya.

### BİLİNMİR

Bu illər haradan gəldi də getdi,
Gəlməyin, getməyin vaxtı bilinmir.
Çay idi, suyunda əksimə baxdım,
Götürüb haraya axdı, bilinmir.

Gözümü açandan bildim haradır,
Ömür də gün kimi ağdır, qaradır.
Dünyaya yad gələn ciyarparadır,
Nə zaman bəxtinə çıxdı, bilinmir.

Mahirə gəlmədi becə dünyaya,
Söz ilə yol gedər uca dünyaya.
Bu zalım dünyaya, qoca dünyaya
Zülümdən kim qurdu taxtı, bilinmir.

### SÖYLƏMƏ

Daha vurmur ürək, ötüşmür günlər,
Dözüm də gözləmə, döz də söyləmə!
Təsəllin ovutmur, ovutmur məni.
Dözüm də gözləmə, döz də söyləmə!

Bu dəli eşq məni çöllərə salıb,
Suları qurumuş göllərə salıb,
İnsaf et, görürsən dillərə salıb.
Dözüm də gözləmə, döz də söyləmə!

Danış olanlardan, danış olandan,
Bahar buludu tək tez-tez dolandan,
Təsəlli istəməm olacaqlardan.
Dözüm də gözləmə, döz də söyləmə!

Qoparıb apardın məni dünyamdan,
Ayırdın, ayırdın məni röyamdan,
Doğrusu, olmuşam şirin canımdan,
Dözüm də gözləmə, döz də söyləmə!

Mahirənin ürəyində dərd gəzər,
Qanadı qırılmış bülbülə bənzər,
Deyirsən dayanar, deyirsən dözər,
Dözüm də gözləmə, döz də söyləmə!
Sən Allah, sən mənə döz də söyləmə!